# Estoniyada Azərbaycanın “Aşıq və muğam” musiqisi




**Estoniyanın paytaxtı Tallin şəhərində Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində “Mere” Mədəniyyət Mərkəzində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş “Aşıq və muğam” adlı konsert keçirilib.**

Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə keçirilən mədəniyyət günlərinin təşkilatçısı rəssam Rövşən Nurun rəhbərlik etdiyi “Buta” Azərbaycan Mədəniyyət Mərkəzidir. Konsertə Estoniya parlamentinin, Mədəniyyət Nazirliyinin, İnteqrasiya Fondunun, diplomatik missiyaların nümayəndələri qatılıblar. Konsertin qonaqları arasında Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Mübariz Əliyev də iştirak edib.

Konsertdə muğam triosu - Asim Pirimov (tar), Hüseyn Nağıyev (kamança) və xanəndə Rəvanə Vəliyeva ifa ediblər. Tallinin məşhur “Grace” rəqs truppası da səhnəyə çıxıb və Azərbaycan milli rəqsləri sərgilənib. Muğam və Xalq mahnıları səsləndirilib. Azərbaycan milli musiqisi və rəqsi tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Estoniyalı tamaşaçılar belə tədbirlərin tez-tez keçirilməsinin xalqlar arasında mədəni əlaqələrin və dostluğun möhkəmlənməsinə xidmət etdiyini bildiriblər.

***XQ***

Xalq qəzeti.- 2024.- 23 sentyabr (№203).- S.14.